*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.345-353*

https://doi.org/10.62837/2025.4.345

**ƏLİYEVA HƏMİDƏ MUXTAR QIZI**
**Azərbaycan Dillər Universiteti**
**Xarici ölkələr ədəbiyyatı kafedrası**
**e-mail: hemide.alieva111@gmail.com**

# XUAN RULFONUN "PEDRO PARAMO" ROMANINDA KOLLEKTİV YADDAŞ VƏ ARXETİP PROBLEMİ

**Xülasə**

Məqalədə Xuan Rulfonun "Pedro Paramo" əsəri şüuraltıya səyahət kimi müəyyən edilir, eyni zamanda onun psixoloji qatları araşdırılır. "Pedro Paramo" əsəri iki fərqli, lakin bir-biri ilə sıx bağlı olan nəzəri kontekstdə təhlil edilir. Karl Qustav Yunqun arxitip nəzəriyyəsi ilə Freydin psixoanalitik nəzəriyyəsi də metodoloji baza kimi istifadə olunur. Freydin şüuraltı, basdırılmış xatirələr və ölüm instinkti anlayışları, Yunqun kölgə, anima, animus, ata və qəhrəman arxitipləri əsərin obrazları vasitəsilə müəyyən edilir. Bu məqamları araşdıraraq romanın təkcə Meksika ədəbiyyatında deyil, eyni zamanda insan psixologiyasının dərin qatlarında hansı izlər buraxması qənaətinə gəlirik.

Məlumdur ki, Freydin psixoanalitik nəzəriyyəsi əsərlərin oxunuşuna, xüsusən də basdırılmış və bilinməyən arzuların, hislərin, travmaların və konfliktlərin necə təzahür etdiyinə dərin bir baxış təqdim edir. Bu prinsipləri rəhbər tutaraq "Pedro Paramo" əsərini Freydin nəzəriyyəsi ilə təhlil edir və bir sıra vacib məqamlar üzərində dayanırıq.

**Açar sözlər:** Xuan Rulfo, "Pedro Paramo", gerçək və təxəyyül,

**Giriş.** Keçmişdən xilas olmaq mümkündürmü? Yoxsa unudulmuş hekayələr və basdırılmış xatirələr həmişə geri qayıdır?

"Pedro Paramo" əsəri bir roman olmağına baxmayaraq, onun sərhədləri ruhun və ya mifin sərhədləri kimi hüdudsuz, eyni zamanda bir o qədər də qeyri-müəyyəndir. Bəzən, insan öz keçmişinin kölgəsində itib-batır. Orada unudulmuş anlar, günlər, xatirələr və ruhlar dolaşır. Xuan Rulfonun "Pedro Paramo" əsəri də məhz belə bir məkan yaradır. Belə ki, bu əsərdə təsvir olunan Komala adlı ölü şəhər atanın kölgəsi və itirilmiş ruhlarla dolu bir dünyadır. "Pedro Paramo" romanı Xuan Presiado adlı gəncin atasını axtarmaq üçün Komalaya olan səfəri ilə bağlıdır. Əslində isə bu onun öz şüuraltına, bastırılmış qorxularına, duyğularına və arxetiplərinə etdiyi bir səfərə çevrilir. Karl Qustav Yunqun nəzəriyyəsinə əsasən, insanın psixikası fərqli arxetiplərlə formalaşır. Buna misal olaraq ata, qəhrəman, müdrik, aşiq, sehirbaz, kölgə, anima, animus və s. göstərə bilərik. Bu arxetiplərin bir neçəsi "Pedro

Paramo" əsərində öz əksini tapmış, bizə insan ruhunun dərinliklərini, qaranlıq tərəfini işıqlandırmağa və aydınlaşdırmağa yön vermişdir.

Latınamerikan ədəbiyyatında sanki ölüm və ruhlar dünyası gerçəkliklə vəhdət təşkil edir [2]. Həmçinin qeyd etmək lazımdır ki, latınamerikan ədəbiyyatı miflərin və gerçəkliyin iç-içə keçdiyi unikal hekayələrlə zəngindir. Xuan Rulfonun "Pedro Paramo" əsəri də bu ənənənin zirvəsində dayanan ən güclü nümunələrdən biridir desək yanılmarıq. Əsərdə real və irrealın sərhədi pozulur, canlılar və ölülər eyni məkanda mövcud olur. Komala təkcə bir şəhər deyil, o eyni zamanda həm şüuraltının qaranlıq guşəsi, həm bastırılmış hislərin təzahürü, həm də unudulmuş ruhların məkanıdır. Ölülərlə dirilər bir yerdə yaşayır, zaman anlayışı pozulur və reallıqla irreallığın sərhədi silinir. Lakin bu sadəcə mistik bir təsvir deyil. Bütün bunlar əsərin həm mifoloji, həm də psixoanalitik təhlilinə yol açır. Əslində əsərə psixoanalitik baxış bucağından baxdığımız zaman onun dərin mənalar daşıdığını görürük. Xuan Rulfo bu əsərlə təkcə Latın Amerikası ədəbiyyatında yeni bir üslub formalaşdırmamış, eyni zamanda insan psixikasının ən dərin və basdırılmış qatlarını da açıq şəkildə təqdim etmişdir. Bu əsər sadəcə bir roman deyil, insanın şüuraltına səyahət edən, onun qorxularını, arzularını və unutmağa çalışdığı həqiqətləri əks etdirən bir güzgüdür. Eyni zamanda həm fərdi, həm də kollektiv şüuraltının bir inikasıdır. Bu baxımdan, əsəri psixoanalitik və mifoloji aspektlərdən araşdırmaq onun dərin qatlarını anlamaq üçün mühüm əhəmiyyət kəsb edir.

"Pedro Paramo" romanında 1920-ci illərdə Meksikanın kəndlərindəki çürümüş sosial quruluş, yoxsulluq, ağalıq, məzlum kəndlilər, ədalətsizliyin, qətlin və şərin tüğyan etdiyi tənha yerlər öz əksini tapmışdır. Habelə atasızlıq, ölüm və günah mövzuları mistik, qeyri-xronoloji bir narrativlə oxuyucuya təqdim olunmuşdur. Qadınların məruz qaldığı kişi zorakılığı – Pedro Paramo və oğlu tərəfindən törədilən, sonrasında ört-basdır edilən bəzi zorakılıqlar ireallıqla reallığın harmoniyasında öz əksini tapmışdır. Müəllif dünyanın bir çox yerində rastlanılan feodal həyatı, ata-oğul münasibətlərini, kənddəki şər və ədalətsizlik kimi hamıya məlum olan mövzuları elə fərqli üslubda yazmışdır ki, kitabı oxuyarkən insan özünü bu sirli dünyanın içində hiss edir. "Pedro Paramo" əsəri oxucunu təkcə Meksikanın kənd həyatı və ölülər aləmi ilə tanış etmir, habelə insan psixikasının dərin qatlarına, kollektiv yaddaşa və arxivdə toplanmış simvolik mənzərələrə səyahətə də dəvət edir. Yunqun arxetip anlayışı və Freydin şüuraltı nəzəriyyəsi əsərin təhlili üçün ideal açarlardır.

**Bilinməyən və basdırılmış arzular** – Freydin fikrincə, insan davranışı və təcrübələri əsasən şüuraltında saxışdırılmış, basdırılmış arzu və istəklər tərəfindən idarə olunur. "Repressiya" (repression-basdırılmış) edilmiş xatirələr və arzular Freydin psixoanalitik nəzəriyyəsinin təməl daşlarından biridir. O hesab edirdi ki, insanlar üzləşməsi çox çətin olan xatirələri, xüsusən də travmatik xatirələri "repressiya" edərək onları şüurlu düşüncədən silirlər [4]. "Pedro Paramo"da məkan və zamanın qarışması, qaranlıq və mistik atmosfer, fərdlərin basdırılmış hisslərini –

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 4, 2025
Səh.345-353

günahlar, travmalar və bastırılmış arzuların geri dönüşünü simvolizə edir. Əsərdə tez-tez təkrarlanan simvol və görüntülər məsələn, toz, boşluq, sükut obrazların daxili dünyasında basdırılmış və inkar olunmuş hislərin və xatirələrin simvolu kimi şərh oluna bilər. Əsərdə tez-tez qarşılaşdığımız ölü və ruh obrazları, unudulmuş və inkar olunmuş xatirələrin, duyğuların və arzuların "qayıdışını" ifadə edir. Bu, Freydin "basdırılmışın geri dönüşü" [4] anlayışı ilə paralellik təşkil edir. "Basdırılmışın geri dönüşü" (die Wiederkehr des Verdrängten) konsepsiyası onun psixoanalitik nəzəriyyəsinin əsas prinsiplərindən biridir. Bu anlayışa görə, insan psixikasında basdırılmış (şüuraltına atılmış) emosiyalar, arzular və travmalar zamanla müxtəlif formalarda özünü göstərir. Başqa sözlə desək, insanın unutmağa çalışdığı və ya şüuraltına sıxışdırdığı təcrübələr tamamilə yox olmur, əksinə, yenidən üzə çıxır. Bu proses yuxular, dil sürüşmələri, incəsənətdə və ya ədəbiyyatda təkrarlanan motivlər, nevrotik simptomlar, həyatımızda təkrarlanan davranışlar və s. formada baş verir.

Bu nəzəriyyə "Pedro Paramo" romanında özünü açıq şəkildə büruzə edir. Roman boyunca keçmişin yenidən ortaya çıxması, personajların unutmaq istədiyi hadisələrin onlara təsir etməsi və şüuraltının simvolik olaraq canlanmasının şahidi oluruq. Buna bir neçə misal göstərərək aydınlaşdıraq. Xuan Presiado atasını tapmaq üçün Komalaya doğru yola çıxır, amma əslində, bu, onun şüuraltına olan səfəridir. Xuan realda atasının necə olduğunu bilmirdi və onunla bağlı olan duyğularını şuuraltına sıxışdırmışdı. Amma bu axtarış onu atası ilə bağlı öz içində sıxışdırdığı həqiqətlərə yaxınlaşdırmağa başlayır. Həmçinin onuda qeyd etmək lazımdır ki, Xuan Presiadonun ölümü də onun bastırılmış qorxularının bir təzahür forması kimi baş verir. Komala keçmişin qalıqları və izləri ilə dolu bir şəhərdir. Orada yaşayanlar, əslində, artıq ölüdürlər və keçmiş travmaların əks-sədası kimi təsvir olunurlar. Buradakı obrazlar öz keçmişlərini unutmağa, ondan qaçmağa çalışırlar, amma buna nail ola bilmirlər. Hər şey yenidən təkrarlanır. Bu, Freydin "bastırılmışın geri dönüşü"[4] anlayışı ilə üst-üstə düşür. Beləki, heç bir keçmiş unudulmur, sadəcə fərqli formalarda geri qayıdır. Başqa bir nümunəni Pedro Paromo obrazında görə bilərik. O, Komalanı idarə edən qəddar bir hökmdar, ağa fiquru kimi qarşımıza çıxır. Lakin şəhəri tərk edilmiş və ölü bir yerə çevirərək öz günahlarının və qorxularının qurbanı olur. Pedro eyni zamanda sevgisini və duyğularını da basdıran biridir. Ələxüsus Susana San Xuana olan sevgisini ifadə edə bilməməsi onun emosional cəhətdən ölü bir insana çevrilməsinə səbəb olur. Susananın ölümü ilə onun bastırılmış bütün duyğuları qayıdır, amma artıq çox gec olur. Nəticədə o, bütün gücünü və təsirini itirir. Beləliklə, belə nəticəyə gələ bilərik ki, Komala şəhəri özü keçmişin məkanıdır. Orada zaman donub qalıb və hər şey təkrar olunur. Pedro Paramo duyğularını basdıraraq tək güc sahibi olmaq istəyir, amma nəticədə Komalanı və özünü məhv edir. Xuan Presiado isə atasının izinə düşsə də, əslində öz daxili qorxularına və basdırılmış həqiqətlərinə doğru gedir və bu da onun məhvinə səbəb olur.

**Edip kompleksi və ata problemi** – Pedro Paramo obrazı əsərdə həm fərdi, həm də kollektiv səviyyədə hakimiyyət və avtoritarın simvolu kimi düşünülə bilər. Freydin nəzəriyyəsində ailə, xüsusilə də atanın rolu subyektdə formalaşan superego və Edip kompleksi baxımından olduqca önəmlidir. Pedro Paramonun atasının anasına qarşı laqeyd rəftarı onun formalaşmasında mənfi rol oynayır. Eyni zamanda onun da ata kimi öz oğlu Xuana olan biganəliyi, Doleresi göndərməyi və bir daha onunla maraqlanmamağı oğlunda atasına qarşı mənfi hislərin formalaşmasına səbəb olmuşdur. Pedro Paramonun ailə üzərindəki təsiri, eyni zamanda onun qadınlarla və övladları ilə münasibətlərində, subyektin erkən uşaqlıq dövründə formalaşan və şüuraltında iz qoyan edipal dinamikaları əks etdirə bilər. Əsərdə bu dinamikalar basdırılmış duyğuların və həll olunmamış konfliktlərin ata-oğul arasındakı münasibətdə təzahür etməsinə səbəb olur.

**Eros və Thanatos** – Freyd həmçinin ölüm instinktini – "thanatos"u insanın psixikasında mövcud olan destruktiv qüvvə kimi təqdim edir. "Pedro Paramo" əsərində də ölüm hadisələri və bunun təkrarlanması, canlı və ölülər arasında sərhədin pozulması, şüuraltında basdırılmış destruktiv impulsların simvolik göstəricisi kimi şərh oluna bilər. Buna əks olaraq, əsərdə zaman-zaman təsvir olunan rəngli həyatın və xoş hislərin "eros"un – həyat instinktinin varlığını da xatırladır. Bu iki güc arasındakı dialoq fərdin daxili aləminin həm konfliktlərini, həm də tarazlığını göstərir. Xuan Presiadonun atasını tapmaq üçün yola çıxması, lakin öz ölümünə doğru getməsi Freydin Thanatos nəzəriyyəsi ilə açıqlana bilər. Həmçinin Susana obrazının da həyata qarşı biganəliyi və ölümü arzulamağı Thanatosa nümunədir.

**Ümumi psixodinamik konfliktlər** – Freydin nəzəriyyəsinə görə, insanın davranışını idarə edən əsas qüvvələrdən biri də, şüuraltında yerləşən istəklərin və qorxuların özünü təkrar-təkrar göstərməsidir. "Pedro Paramo" əsərində bu fərdlərin və cəmiyyətin keçmişlə üzləşməsi, unudulmuş, inkar olunmuş hisslərin və həll olunmamış konfliktlərin, problemlərin yenidən səthə çıxmasıyla təzahür edir.

Əsərin quruluşundakı fraqmentarlıq və müxtəlif perspektivlərdən bizə təqdim olunan hekayələr fərdin daxili aləminin çox qatlı, hətta bəzən parçalanmış və ziddiyyətli hissələrdən ibarət olduğunu göstərir. Bunu Freydin "id", "ego" və "superego" arasındakı dinamiklərin və konfliktlərin ədəbiyyat vasitəsilə simvolik ifadəsi kimi qəbul edə bilərik.

Xuan Rulfonun əsərini Karl Qustav Yunqun arxitiplər nəzəriyyəsi kontekstində analiz etmək bizə əsərin mistik atmosferini və simvolik dərinliyini daha da aydınlaşdırmağa imkan verir. Biz burada bir neçə fərqli arxetipləri analiz etməyə çalışacağıq.

Yunqa görə insanın psixikası yalnız bir fərdin xatirələrindən ibarət deyildir. O, eyni zamanda bütün insanlığın təcrübəsinin simvolik izlərini, yəni arxitipləri özündə əks etdirir. "Pedro Paramo"da qaranlıq, bəzən kəskin mistik atmosfer, zamanın və məkanın qarışdığı bir reallıq, oxucunu fərdi şüurun kənarındakı, ümumbəşəri

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.345-353*

simvolik qatlara aparır. Komala şəhəri və onun ətrafındakı ölü aləmi, yalnız fiziki bir məkan kimi deyil, eyni zamanda kollektiv qeyri-şüurun, repressed (basdırılmış) edilmiş xatirələrin, ortaq kədərin və günahın simvolik məkanı kimi başa düşülə bilər.

**Ata arxetipi** – Karl Qustav Yunqun analitik psixologiya nəzəriyyəsindəki əsas arxetiplərdən biri də ata arxetipidir. Bu arxetip atanın bioloji varlığından çox onun simvolik və psixoloji aspektlərinə diqqət yetirir. Ata arxetipi səlahiyyət, qoruma, rəhbərlik, nizam-intizam və müdriklik kimi anlayışlarla əlaqələndirilir. Bununla belə, hər arxetipdə olduğu kimi ata arxetipinində həm mənfi (qaranlıq), həm də müsbət (aydınlıq) tərəfləri vardır. Aydınlıq tərəflərinə qoruyucu, dəstəkləyici, ədalətli, ruhani rəhbər, asayişi təmin edən, güvən verən, inkişaf etdirən, təşvik edən, şərəfli, yolumuza işıq tutan, hikmətli, bilik ötürən və s. deyə bilərik. Qaranlıq tərəflərinə isə zalım, avtoritar, fərdin azadlığını məhdudlaşdıran, həddindən artıq sərt, despot, sevgisiz, cəzalandırıcı, qorxuducu, günahlandıran, məsafəli, soyuqqanlı, inkişafa mane olan və s. göstərmək olar. Ata arxetipi insan psixologiyası və mədəniyyətində dərin kök salmış güclü simvoldur. K.Q.Yunqa görə ata arxetipi fərdin daxili aləmində şüursuz olaraq mövcud olmağa davam edir. İnsanın həyatında ata fiquru ilə münasibətlərindən asılı olaraq bu arxetipi müxtəlif formalarda inkişaf edə bilər. Ata arxetipinə müasir ədəbiyyatda da tez-tez rast gəlmək mümkündür. Bu əsərlərdən biri də məhz Xuan Rulfonun "Pedro Paramo"əsəridir. "Pedro Paramo"da bu arxetip mənfi formada qarşımıza çıxır. Pedro Paramo əsərin əsas mərkəzi fiqurudur. Belə ki, bu obraz bazən tanrı, bəzənsə şeytan kimi çıxış edir. Bəzi tədqiqatçılar Pedro Paramonu Komala üçün bir "Tanrı Ata" fiquru (The God Father) kimi qəbul edirlər. Lakin o, xeyirxah, sevgi dolu və mərhəmətli bir Tanrı deyil, əksinə əlindəki gözəllikləri məhv edən, cəhənnəmi yaradan tirandır. O, bizə məlum olan klassik qoruyucu ata modelindən çox uzaqdır. Xuan Rulfo bu əsərində klassik ata arxetipini dekonstruksiya edir. Əsərdə Pedro Paramo tiran, avtoritar, istismarcı, duyğusuz və zalım bir ata kimi təsvir olunur. O, qoruyucu ata və müdrik yox, məhv edən avtoritardır. Və insanları bir araya gətirən yox, onları ayıran, parçalayan, məhvə məhkum edən ata arxetipinin qaranlıq tərəfini təmsil edir. Xuan Presiado üçün o, sadəcə uzaqlarda yaşayan, onu kiçik yaşlarından tərk etmiş birisidir. Sevgi və qayğı simvolu bir ata obrazı deyil. Yunqun nəzəriyyəsinə görə, insan öz fərdi kimliyini anlama prosesi zamanı tez-tez ata arxetipi ilə qarşılaşır [6]. Xuan Presiado atası Pedro Paramonu heç vaxt tanımamışdır. O, anasına verdiyi vədə əsasən atasını tapmaq üçün Komalaya gəlir. Biz bunu psixoloji baxımdan həm atanın kimliyini, həm də öz kimliyini anlamağa çalışan bir insanın arxetipik səyahəti kimi dəyərləndirə bilərik. Xuan üçün bu təkcə atasını tapmaq deyil, həm də mənəvi və psixoloji kimliyini anlamaq deməkdir. Ancaq Xuan Komalada atası ilə birbaşa qarşılaşmadan əvvəl onun zalımlığı və despotluğu ilə tanış olur. Gözləmədiyi bir halla qarşılaşan Xuan üçün bu olduqca sarsıdıcı və məhv edici olur. Təsadüfi deyil ki, o, atası ilə qarşılaşmamış şəhərdə dolaşan ruhların içində it-bat olur və ölür. Belə nəticəyə gələ

bilərik ki, atasının varlığı onun üçün qurtuluşdan çox ölümə səbəb olur. Onuda qeyd etmək lazımdır ki, o təkcə Xuan üçün yox, eyni zamanda kəndin bütün sakinləri üçün zalım "ata"dır. İnsanlara zülm edir, onları qarət edir, qadınları istismar edir və bir zamanlar cənnətə bənzədilən kəndin cəhənnəmə çevrilməsini sürətləndirir. Pedro fiziki olaraq nə qədər güclü görünsə də, daxilən tənha, duyğusuz və ölüdür. Onun sahib olduğu bu var-dövlət və güc onun üçün heç bir əhəmiyyət kəsb etmir. Gücünü və şəhər üzərindəki hakimiyyətini itirirən Pedro Paramo əsərin sonunda tək-tənha ölür. Bu müəyyən mənada atanın gücünün sarsılmasını, həmçinin patriarxal sistemin çökməsini simvolizə edir. Xuan Presiadonun da atası ilə qarşılaşmadan və danışmadan ölümü ata arxetipi ilə barışmayan bir insanın faciəsinə işarədir. Belə ki o, öz kimliyini – köklərini anlaya bilmədən məhv olur. Bu müəyyən mənada Meksika cəmiyyətində ata-oğul münasibətlərinin mürəkkəbliyinə, ata fiqurunun travmatik təsirinə işarə edə bilər.

**Arxitipik səyahət və individuasiya prosesi** – qəhrəmanın, yəni Xuan Presiado obrazının Komalaya səyahətini klassik qəhrəman arxitipinin (səyahətçi) müasir interpretasiyası kimi düşünmək mümkündür. O, itkin düşmüş kimliyini, atasının izlərini və şəxsi keçmişini tapmaq üçün yola çıxır. Bu səyahət, həm xarici dünyada, həm də daxili psixologiyada transformasiya və individuasiyalaşma prosesini simvolizə edir [7]. Eyni zamanda bu səyahəti həm xarici, həm daxili aləmin kəşfi, habelə unudulmuş və təkrarlanan xatirələrin, kollektiv kölgənin üzə çıxması kimi qiymətləndirmək mümükndür. Burada biz Komalanı şüuraltınına bənzədə bilərik. Xuan öz atası ilə bağlı həqiqətləri axtararkən əslində öz psixikasının dərinliklərinə enir və burada onu məhvə aparan həqiqətlərlə qarşılaşır. Onu da qeyd etmək lazımdır ki, bu səyahət qəhrəmanın öz kölgəsi – unudulmuş şəxsiyyəti, basdırılmış duyğuları və kollektiv yaddaşın özündə cəmlədiyi pisliklərlə üzləşməsidir. Nəticədə bu səyahət daxili dəyişimin baş verməsi kimi də qəbul oluna bilər.

**Kölgə** – əsas arxetiplərdən biridir. Yunqun arxetiplər nəzəriyyəsində insanın basdırılmış, inkar olunmuş və ya fərdin şüurundan kənarda qalan qaranlıq tərəfi kölgə adlanır. "Pedro Paramo" əsərində bu anlayışı bir neçə hissədə müşahidə etmək mümkündür. Bunlardan ilki "Komala şəhəri və Kollektiv Kölgə"dir. Komala şəhəri yalnız fiziki bir məkan deyil, onu kollektiv kölgə kimi başa düşü bilərik. Bu şəhər əzəldən bəri Meksikanın tarixində yaşanmış bütün travmaların, günahların və inkar olunmuş reallıqların simvolik təcəssümüdür. Orada dolaşan ruhlar və səssiz mövcudluq, cəmiyyətin unudulmuş, ağlın tozlu rəflərinə qaldırılmış, basdırılmış hisslərinin, başqa sözlə kollektiv kölgənin təzahürüdür. Digəri "Pedro Pramo və Fərdi Kölgə" anlayışıdır. Əsərimizin baş qəhrəmanlarından biri olan Pedro Paramo güc və hakimiyyət simvolu olmaqla yanaşı, özündə həm də basdırılmış, qaranlıq tərəfləri daşıyan bir obrazdır. Onun zalım idarəetmə üsulları, fərdi və kollektiv şüurun dəhşətli, inkar edilmiş – pislik, yalan, ədalətsizlik, günah, xəyanət və s. kimi hislərin simvolik işarəsidir. Sonuncusu isə "Ölüm və Keçmişlə Qarşılaşma"dır. Əsərdə ölüm

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.345-353*

hadisələrinin və keçmişin daim təkrar olunması, fərdlərin və cəmiyyətin basdırılmış hissləri ilə üzləşməli olduğunu göstərən əsas nüanslardan biridir. Bu fərdin kölgəsi ilə dialoqa girməsinin və ona inteqrasiya olunmasının zəruriliyini simvolizə edir.

**Anima** – Yunqun nəzəriyyəsində kişilərin daxili feminin enerjisini, yəni kişidəki qadın başlanğıcını ifadə edir. Qadın başlanğıcı dedikdə kişilərin müəyyən mənada duyğusal, intuitiv və yaradıcı tərəfi nəzərdə tutulur. "Pedro Paramo" əsərində animanı fərqli konteksldə müşahidə edirik. Pedro Paramo kimi xaricən güclü, daxilən aciz kişilər öz animalarını idealizasiya edərək real həyatdakı qadınlardan uzaq, xəyali ideal yaradırlar. Susana San Xuan bu mənada onların duyğusal ehtiyaclarını və basdırılmış arzularını simvolizə edir desək yanılmarıq. Susana təkcə sevilən və qorunan bir varlıq deyil, eyni zamanda kişinin daxili dünyasında unudulmuş, həssas və mürəkkəb hisslərin təzahürüdür. Bundan savayı, Xuan Presiado başda olmaqla əsərdəki kişilər öz daxili dünyalarında və keçmişlərində güclü feminin təsirlərlə – sevgi, kədər, nostalji, həssaslıq, gözyaşı və s. ilə qarşılaşırlar. Bunu müəyyən mənada onların şüurunun dərinliklərindəki anima ilə əlaqələndirə bilərik. Unutulmuş və ya yarımçıq qalmış sevgi münasibətləri, zəif qadın obrazları kişilərin öz anima tərəfi ilə üzləşməsini və onu dərk etməsi təmsil edir. Bundan savayı əsərdə feminin simvollardanda istifadə olunur. Komalada dolaşan qadın səsləri və yaxud qadın personajların siluetləri buna misal ola bilər. Əslində bunlar kişilərin iç dünyasında olan duyğusal və intuisiya ilə dolu tərəfi simvolizə edir. Qadın obrazlarının Komalada ruh kimi dolaşmasını müəyyən mənada basdırılmış animanın metaforası olaraq qəbul edə bilərik. Kişilərin öz animaları ilə qarşılaşması, onların fərdi inkişafında və individuasiyalaşma prosesində mühüm rol oynayır. Əgər fərd öz animası ilə harmoniya qurub onu qəbullana bilsə o, öz duyğusal zənginliyini və yaradıcı potensialını kəşf edəcəkdir. Əks təqdirdə isə daxili konflikt və parçalanma yaşayacaqdır. Əsərimizdə bu, ruhların bir-biri ilə qarşılaşması və fərdlərin keçmişlə, duyğularla barışmağa çalışması şəklində əks olunur.

**Animus** – bu isə qadınlarda mövcud olan daxili maskulin enerjini, yəni qadınlarda olan kişi başlanğıcını təmsil edir. Analitik, məntiqli, qətiyyətli, iddialı, güclü və s. kimi keyfiyyətləri özündə birləşdirir. Qadınlar özlüyündə həm feminen incəliyi, həm də maskulin sərtliyi birləşdirə bilərlər. Əsərdə qadın personajlar ikinci dərəcəli olduğu üçün animusun izlərini tapmaq bir az çətindir. Əsərdə animus arxetipini biz daha çox Susana San Xuan obrazında görə bilərik. Susana azad ruhlu, sərbəst düşüncəli və heç bir kişiyə tabe olmayan bir xarakterə sahibdir. Klassik qadın qəhrəmanlardan fərqli olaraq o, öz daxili dünyasında daha çox güc və sərbəstlik hiss edir. O nə atasına, nə Pedro Paramoya, nə də Komalanın sosial qaydalarına boyun əymir. Bu mənada onun sərbəstliyi və duyğularına sahib çıxması, qətiyyətliliyi animusun qadın psixikasındakı göstəricisi kimi qəbul oluna bilər.

**Nəticə.** Beləliklə, Susana Pedronun gücünə və nüfuzuna baxmayaraq, ona tabe olmağı rədd edir. Onun hökmranlığını rədd edir. Bu nöqtəyi-nəzərdən onun azad

ruhlu, qorxusuz və emosional olaraq əlçatmaz olması animusun xüsusiyyətlərindən hesab oluna bilər.

Latınamerikan ədəbiyyatının incisi olan "Pedro Pramo" təkcə magik realistik elementləri özündə birləşdirən yox, eyni zamanda insan psixikasının dərinliklərinə enən, müxtəlif mifoloji və psixoanalitik qatlarla zəngin olan bir əsərdir. Əsər bizlərə insanın fərdi və kollektiv tramvalardan, uğursuzluqlardan qaçmağının əbəs olduğunu göstərir. İnsan basdırmış olduğu emosia və tramvalardan tamamilə qurtula bilməz. Bu duyğular gec-tez bizim qarşımıza fərqli formalarda çıxacaqdır. Əsərdəki obrazlar kollektiv şüursuzluğun "yaşayan yaddaş"ı kimi ortaya çıxaraq, oxucuya hər kəsin daxilində mövcud olan, buna baxmayaraq adətən qaranlıqda qalan hislərin – həyatın, ölümün, sevginin və acının simvolik görünüşünü təqdim edir.

Hər bir ruh keçmişin izləri, şəxsi, bəzənsə kollektiv "kölgə"nin elementləri ilə doludur. Bu, insan psixikasının müxtəlif hissələrinin bir-biri ilə dialoqu kimi qiymətləndirilə bilər.

## Ədəbiyyat:

1.Əliyeva H. Psixoanaliz və Şekspir yaradıcılığı // Sim-Sim. 05/11/2022
2.Latın Amerikası romanı. Bakı: TM. 2019, 244s.
3.Rulfo J. Pedro Páramo. Barcelona. 2016.
4.Freyd Z. Psixoanalizlə ilkin tanışlıq. Bakı: Qanun. 2016. 160s.
5.Фрейд З. Введение в психоанализ. С.-П.: Питер. 2007. 190с.
6.Юнг К. Архетип и символ. Москва: Ренессанс. 1991. 124с.
7.Юнг К. Душа и миф: шесть архетипов. Киев: Государственная библиотека. 1996. 384 с.

**Алиева Гамида Мухтар кызы**

**Проблема коллективной памяти и архетипов в романе Хуана Рульфо «Педро Парамо»**

**Резюме**

В статье анализируется роман Хуана Рульфо «Педро Порамо» как путешествие в становление сознания и исследование его психологических слоев. Роман «Педро Порамо» анализируется в двух разных, но тесно связанных теоретических контекстах. В качестве методологических рамок используются теория архетипов Карла Густава Юнга и психоаналитическая теория Фрейда. Образы произведения отражают фрейдистские концепции подсознания, подавленных воспоминаний и инстинкта смерти, а также юнгианские архетипы тени, анимы, анимуса, отца и героя. Учитывая эти моменты, мы приходим к выводу, что роман оставляет след не только в мексиканской литературе, но и в глубинных слоях человеческой психологии.

Хорошо известно, что психоаналитическая теория Фрейда предполагает чтение его произведений, особенно для того, чтобы глубже понять, как проявляются подавленные и неизвестные желания, чувства, травмы и конфликты. Руководствуясь этими принципами, мы проанализируем роман «Педро Парамо» через призму теории Фрейда и обращаем внимание на ряд важных моментов.

**Ключевые слова:** Хуан Рульфо, «Педро Парамо», коллективная память, архетип, роман

**Aliyeva Hamida Muxtar**

**The problem of collective memory and archetypes in Juan Rulfo's novel "Pedro Paramo"**

**Summary**

The article analyses Juan Rulfo's novel "Pedro Paramo" as a journey into the formation of consciousness and an exploration of its psychological layers. The novel "Pedro Páramo" is analysed in two different but closely related theoretical contexts. Carl Gustav Jung's theory of archetypes and Freud's psychoanalytic theory are used as methodological frameworks. The images of the work reflect the Freudian concepts of the subconscious, repressed memories and the death instinct, as well as the Jungian archetypes of the shadow, the anima, the animus, the father and the hero. Considering these points, we conclude that the novel leaves a mark not only on Mexican literature, but also on the deeper layers of human psychology.

It is well known that Freud's psychoanalytic theory involves reading his works, especially to gain a deeper understanding of how repressed and unknown desires, feelings, traumas and conflicts manifest themselves. Guided by these principles, we will analyse novel "Pedro Paramo" through the lens of Freud's theory and draw attention to a number of important points.

**Keywords:** Juan Rulfo, "Pedro Paramo", collective memory, archetyp, novel

**Rəyçi: professor, Həmidə Əhməd qızı Əliyeva**